# AZƏRBAYCAN:

# Medianın hüquqi durumu

*2023, İLLİK ANALİZ*

Media Hüququ Qrupu

Media Hüququ Qrupu - *Azərbaycanda media azadlığı ilə bağlı qanunvericiliyi və təcrübəni qabaqcıl meyarlara uyğunlaşdırmaq, medianı və jurnalistləri qorumaq, ifadə azadlığı, eləcə də digər əsas hüquqların təşviqi sahəsində çalışan vətəndaş cəmiyyəti təşəbbüsüdür* www.mediarights.org; mediarightsaz@gmail.com

## SƏNƏD HAQQINDA

Bu Hesabat 2023-cü ildə Azərbaycanda media, jurnalistlərlə əlaqəli baş vermiş insidentlərin monitorinqinə, analizinə əsaslanır. Azərbaycanda il ərzində ümumilikdə 140-dan artıq belə insident qeydə alınıb. İnsindetlərlə bağlı məlumatlar mediada yayılan xəbərlərdən, insidentlərin iştirakçısı olan, hüquqi yardım üçün müraciət edən jurnalist və bloqçuların açıqlamalarından götürülüb.

Sənəd 4 bölmədən ibarətdir.

1-ci bölmədə siyasi kontekst fonunda medianın durumuna yer verilib.2-ci bölmə jurnalistlərə, mediada çalışanlara qarşı fiziki-psixoloji təzyiq-təhdidlərdən, peşə fəaliyyətinə digər əngəllər haqqındadır. 3-cü bölmədə internet resursları, jurnalistlər, mediada çalışanların 2023-cü ildə məruz qaldıqları kiber müdaxilələrdən, hücumlardan bəhs edilir. 4-cü bölmə media, jurnalistlərlə əlaqəli məhkəmə işləri haqdadır. Həmin bölmədə həbsdə olan jurnalistlərin işləri haqda da məlumat verilir.

*Sənədi hazırladı: Xalid Agalı*

## İ Ç İ N D Ə K İ L Ə R:


1. SİYASİ KONTEKST VƏ MEDİA
2. JURNALİSTLƏRƏ QARŞI FİZİKİ-PSİXOLOJİ TƏZYİQ-TƏHDİDLƏR, PEŞƏ FƏALİYYƏTİNƏ DİGƏR MANEƏLƏR
3. QEYRİ-FİZİKİ, KİBER TƏZYİQLƏR
4. HÜQUQİ VƏ DİGƏR TƏSİRLƏRDƏN İSTİFADƏ ETMƏKLƏ TƏZYİQLƏR

# 1. SİYASİ KONTEKST VƏ MEDİA

“Sərhədsiz Reportyorlar” təşkilatının 2023-cü il üzrə Ümumdünya Mətbuat Azadlığı İndeksində Azərbaycan 180 ölkə içərisində 151-ci yerdədir. 2023-cü ilin indeksində Azərbaycan üç pillə irəliləyib. Ancaq “Sərhədsiz Reportyorlar”ın şərşinə görə, bu nisbi irəliləmə Azərbaycanda media azadlığı sahəsində müsbətə doğru hansısa dəyişiklə bağlı deyil, digər ölkələrdə nəticələrin daha da pisləşməsi ilə əlaqəlidir. Son bir ildə Azərbaycanda xüsusilə, jurnalistlərin təhlükəsizliyi və hüquqi çərçivə göstəriciləri üzrə ciddi geriləmələr nəzərə çarpıb.

“Freedom House” təşkilatının 2023-cü ilin fevralında açıqladığı qlobal azadlıq indeksində Azərbaycan 100 mümkün baldan yalnız 9 bal toplayıb, qeyri-azad ölkələr sırasında yer alıb. Azərbaycan 15 ildən çoxdur ki, ardıcıl olaraq, “azad olmayan” ölkələr sırasında yer alır. Təşkilat Azərbaycanda parlametin media orqanları və jurnalistlərə əlavə məhdudiyyətlər tətbiq etdiyini vurğulayıb. “Freedom House”-nin "İnternet Azadlığı 2023" hesabatında Azərbaycan yenə də interneti azad olmayan ölkələr sırasına daxil edilib. Sənəddə əsas məhdudiyyətlər sırasında sosial media platformalarının, siyasi, sosial və dini kontentli vebsaytların bloklanması, hökumətyönlü şərhçilərin onlayn platformalarda diskussiyaları manipulyasiya etməsi göstərilir.

2023-cü ildə bir il əvvəl qəbul edilmiş “Media haqqında” yeni qanun tam tətbiq olunmağa başlayıb. Qanun bütün media və jurnalistlərin vahid reyestrinin yaradılmasını nəzərdə tuturdu. Reyestrin yaradılması başa çatıb, 10-larla müstəqil medianın reyestrə daxil edilməsindən formal əsaslarla imtina olunub. Reyestrdə olmamaq jurnalist hüquqlarından istifadəyə ciddi məhdudiyyətlər gətirir. Reyestr daxil edilməyən medialar tənzimləyici dövlət orqanının müvafiq qərarından məhkəməyə şikayət etsələr də məhkəmələr yeni qanuna istinad edərək bütün şikayətləri rədd ediblər. Azərbaycanda ilk dəfə olaraq, reyestrə müraciət etmədiyi üçün 3 medianın fəaliyyətinə xitam verilib, həmin medianın saytı məhkəmə qərarı olmadan bloklanıb.

# 2. JURNALİSTLƏRƏ QARŞI FİZİKİ-PSİXOLOJİ TƏZYİQ-TƏHDİDLƏR, PEŞƏ FƏALİYYƏTİNƏ DİGƏR MANEƏLƏR

2023-cü ildə Azərbaycanda jurnalistlər azı 19 dəfə fiziki basqıya məruz qaldığı qeydə alınıb. Fiziki təzyiqlər əsasən, jurnalistlər peşə fəaliyyətlərin i yerinə yetirərkən - kütləvi aksiyalardan, toplantılardan reportaj hazırlayarkən, informasiya toplayarkən, canlı yayım edərkən baş verib. Jurnalistlər əsasən, hüquq mühafizə orqanlarının əməkdaşlarının təzyiqi ilə üzləşiblər. Müxtəlif ittihamlarla məsuliyyətə cəlb edilən jurnalistlər də əsasən, saxlanılma zamanı fiziki zorakılığa məruz qalıblar.

Peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin qaba rəftarla üzləşməsi, fiziki təzyiqə məruz qalması halları daha yayğın olub.

Azərbaycanın Gədəbəy rayonunda ekoloji tələblərlə keçirilən etiraz aksiyasından reportaj hazırlayan müstəqil jurnalistlərin əksəriyyəti fiziki təzyiqə məruz qalıblar, onların informasiya toplamasına maneçilik yaradılıb. Müstəqil jurnalist Elməddin Şamilzadə polis zorakılığı ilə üzləşdiyini açıqlayıb - ondan lentə aldığı görüntülərin silinməsi tələb olun ub, bundan imtina etdikdə polis əməkdaşları onu yumruqlayıb, dəyənəklə vurub, saçını yolub, qarnından təpiklə vurublar, onu zorlayacaqları ilə hədələyiblər. Jurnalist təxminən 5 dəqiqə huşunu itirib. Facebook səhifəsində yaydığı video görüntüləri silməyə məcbur edilən jurnalist Bakı Şəhər Baş Polis İdarəsinə aparıldığını, üzləşdiyi hücumla bağlı ictimai açıqlama verəcəyi halda həbs ediləcəyi ilə hədələnib.

Gədəbəy rayonundakı aksiyadan informasiya toplayan digər jurnalistlər – Abzas Media-nın əməkdaşı Nərgiz Absalamova, “Amerikanın Səsi” radiosunun əməkdaşı Nigar Mübariz, müstəqil jurnalist Elsevər Muradzadə də polis tərəfindən zorakılığa məruz qaldıqlarını açıqlayıblar.

Bir qrup dindarın Azərbaycan parlamentinin qarşısında keçirmək istədikləri aksiyadan informasiya toplamağa gedən jurnalistlər fiziki təzyiqlə üzləşiblər. Aksiya iştirakçıları saxlanılarkən hüquq mühafizə orqanlarının əməkdaşları bunu lentə lan jurnalistlərə təzyiq ediblər. “Toplum TV”-nin əməkdaşı Fatimə Mövlamlı hadisə yerindən reportaj hazırlayarkən xəsarət alıb. Ərazidəki polis avtomobili onun ayağının üzərindən keçib. Jurnalist travmatoloji xəstəxanada müayinədən keçib, ancaq xəstəxana jurnalistə xəsarət alması barədə sənəd verməkdən də imtina edib.

Müxalif Azərbaycan Xalq Cəbhəsi Partiyasının fəallarının martda Bakıda keçirmək istədikləri etiraz aksiyasında “Kanal11” internet televiziyasının əməkdaşı Cəmilə Əzimova fiziki zorakılığa məruz qalıb. Həmin aksiyadan informasiya toplayan “Time TV” internet televiziyasının əməkdaşı Nurlan Cəfəri də fiziki təzyiqlə üzləşib. Zorakılığa məruz qalması, telefonunun zədələnməsi ilə bağlı özünün facebook səhifəsindən Daxili İşlər Nazirliyinin rəhbərliyinə maraciət ünvanlayıb,

məruz qaldığı təzyiqlərə görə, hüquqi addımların atılmasını xahiş edib. Bunun ardınca jurnalist polisə aparılıb və inzibati qaydada həbs edilib.

“Demokratik.az” saytının həbsdə olan rəhbəri Osman Rzayevin Gəncə şəhərində keçirilən məhkəmə prosesindən reportaj hazırlamaq istəyən jurnalistlər də təzyiqə məruz qalıblar. “Azel TV”-nin əməkdaşı Sevinc Sadıqova mühafizəçilərin hücumuna məruz qalıb. Onun çəkiliş aparmasına zorakılıqla müdaxilə edilib, jurnalsitin əlinə zərbə endirilib.

Bir qrup feminist fəalın iyunda Amerika səfirliyinin ərazisində keçirmək istədikləri aksiyada Abzas Media-nın rəhbəri Ülvi Həsənli zorakılığa məruz qalıb. Aksiyanı lentə almaq istəyən jurnalist mühafizəçilər tərəfindən saxlanılıb və polisə təhfil verilib. Jurnalist saxlanılma zamanı və polisdə oan fiziki zor tətbiq edildiyini bildirib.

2023-cü ilin noyabrında həbs edilmiş bir qrup jurnalistin məhkəmə binasına gətirilməsi zamanı çəkiliş aparmaq istəyən jurnalistlər də zorakılıqla üzləşiblər. Müstəqil jurnalist İslam Şıxəli, Meydan TV-nin əməkdaşları Aysel Umudova və Xəyalə Ağayeva, Toplum TV-nin əməkdaşı Fatimə Mövlamlı, Ameriaknın Səsi radiosunun əməkdaşları Ülviyyə Əli və Nigar Mübarizə mühafizə polisləri güc tətbiq ediblər.

2023-cü ilin sonunda Azərbaycanda müxtəlif ittihamlarla 5-dən çox jurnalsit məsuliyyətə cəlb ediliblər, barələrində həbs qəti imkan tədbiri seçilib. Həmin jurnalistlərin bir çoxunun yaxınları, vəkilləri onların saxlanılması zamanı fiziki zorakılığa məruz qaldıqlarını bildiriblər.

Abzas Media-nın qaçaqmalçılıq ittihamı ilə həbs edilmiş rəhbəri Ülvi Həsənli saxlanılan zaman döyülüb, onun vəkili Həsənlinin bədənində xəsarət izlərinin olduğunu açıqlayıb, bununla bağlı müvafiq qurumlara şikayət edib. Həsənli məhkəmə zamanı bildirib ki, “saxlanılan zaman fiziki və psixoloji təzyiq edirdilər. Məni yumruqladılar, təpiklədilər, tələb etdilər ki, niyə korrupsiyadan yazırıq...”. Abzas Media-nın eyni ittihamla həsb edilmiş redaktoru Sevinc Vaqıfqızının da təzyiqə məruz qaldığı açıqlanıb. Jurnalist xaricdən Azərbaycana dönərkən elə təyyarədən düşən kimi tutulub və ardınca da həbs edilib.

Kanal-11 YouTube kanalının “hədə-qorxu ilə tələb etmə” ittihamı ilə həbs edilmiş rəhbəri Teymur Kərimov da saxlanılan zaman fiziki zorakılığa məruz qalıb. Onun vəkili bəyanatında bildirib ki, jurnalist Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində döyülüb.

Tanınmış reportyor Nurlan Qəhrəmanlı sentyabrda “qadağan olunmuş məlumatların yayılması” əsası ilə inzibati qaydada həbs edilib. Reportyorun ailəsi onun mülki geyimli şəxslər tərəfindən evdən zorla aparıldığını bildiriblər. Qəhrəmanlı məhkəməsində saxlama yerində mənəvi və fiziki təzyiqlərə məruz qaldığını, bədənində xəsarət izlərinin olduğunu açıqlayıb.

# 3.QEYRİ-FİZİKİ, KİBER TƏZYİQLƏR

2023-cü ildə Azərbaycanda internet resursları, jurnalistlər, mediada çalışanlar azı 14 dəfə onlayn məkanda şəxsən qeyri – fiziki təzyiqə məruz qalıblar. Təzyiqə məruz qalanlar əsasən, müstəqil və müxalif məzmunlu medialar, jurnalistlər olublar. Əvvəlki illə müqayisədə belə insidentlərin sayında nisbi azalma müşahidə olunub.

Ötən bir il ərzində ən çox rast gələnən təzyiqlər internet resurslarına, jurnalistlərin şəxsi məlumatlarına kiber yolla müdaxilələr, hücumlar olub.

2023-cü ilin sonunda baş redaktoru həbs edilən Kanal13 internet televiziyasının Youtube səhifəsi davamlı kiber hücumlara məruz qalıb. Əvvəllər də vaxtaşırı kiber müdaxiləyə məruz qalan kanalın təsisçilərindən Anar Orucov bildirib ki, kanalın rəhbəri Əziz Orucov həbs ediləndən sonra davamlı kiber hücuma məruz qalıblar. Hücum edənlər kanaldan bir neçə videonu siliblər. Eyni zamanda hələ ki, məzmunu müəyyən edilməmiş bir video kanalın səhifəsinə daxil edilib.

"Müsavat TV" internet televiziyası hakerlərin hücumuna məruz qalıb. Resursun əvvəlcə email ünvanları ələ keçirilib. Ardınca kanalın bazasındakı materiallar silinib. Eyni məzmunlu haker hücumu ilə hökumətin nəzarətində olan "Səs TV" internet televiziyası da üzləşib. Həmin kanalın da email ünvanları oğurlanıb, bazadakı materiallar silinib.

"Bayraqdar Media" facebook səhifəsi də haker hücumu ilə üzləşib, hakerlər səhifəni dağıdıblar. Səhifənin adminstratoru, jurnalsit Azər Həsrətin facebook səhifəsi də eyni aqibətlə üzləşib, səhifə oğurlanıb. "Kanal-11" YouTube kanalının direktoru Teymur Kərimov şübhəli ittihamlarla həbs edildikdən sonra jurnalistin facebook hesabı silinib.

Müstəqil mövqeyi ilə seçilən, tənqidi reportajlarına görə risq altında olan jurnalistlərə təhdidlər davam edib. "Meydan TV" internet resursunun əməkdaşı Aytac Əhmədovanın (Tapdıq) şəxsi yazışmaları kiber müdaxilə yolu ilə ələ keçirilib. Siyasi fəal Bəxtiyar Hacıyev həbs edildikdən sonra onun müxtəlif xanımlarla yazışmaları ələ keçirilib və yayılıb. Onun A.Əhmədova ilə yazışmalarının scrinləri müxtəlif Teleqram kanllarında və facebook səhifələrində ictimaiyyətə açıqlanıb. Tənqidçi jurnalisti gözdən salmaq üçün onun şəxsi fotoları servis edilib.

İlin sonunda korrupsiya ilə bağlı araşdırmaları ilə məşhurlaşan "Abzas Media" onlayn resursunun 5-dən çox jurnalisti qurama ittihamlarla həbs eidliblər. Ardınca, jurnalistlərin daha əvvəl izlənilməsi ortaya çıxıb. "Abzas Media"nın həbsdə olan rəhbəri Ülvi Həsənlinin şəhərin müxtəlif yerlərində izlənilməsinin görüntüləri yayılıb. Bu görüntülərdən jurnalistin həbsinə haqq qazandırmaq məqsədilə istifadə edilib. Onun telefon danışıqlarına nəzarət olunduğu da üzə çıxıb. Onlayn medianın həbsdə olan rəhbərinin yaxınları, vəkilləri ilə ünsiyyət hüququna da qadağa tətbiq edilib. Jurnalistin saxlanıldığı təcridxananın rəhbərliyi jurnalisti üzləşdiyi hüquq pozuntularından şikayət etdiyi üçün hədələyib, şikayətlərini davam etdirəcəyi təqdirdə vəziyyətinin daha da pisləşəcəyini bildirib.

Bakıdakı istintaq təcridxanalarından birində saxlanılan bloger Rəşad Ramazanov da təcridxanada psixoloji təzyiqlərlə üzləşib. Onun ailə üzvlərinin bildirdiyinə görə, təcridxana

rəhbərliyi digər saxlanılan şəxsləri bloqerə qarşı qaldırır, ona addımbaşı problem yaradırlar. Bloqerin ailə üzvləri əlaqəli orqanlara şikayət edəndən sonra təzyiqlər daha da artıb. Bloqerlə yanaşı onun kamera yoldaşları da cərimə kamerasına salınıb. Digər saxlanılan şəxslərə məhz Ramazanova görə onlara cəza verildiyi bildirilib.

Konkret.az onlayn media resursunun rəhbəri Fadil Paşayev məqalələrinə görə, təhdid və təhqir edilib. Azərbaycanın rayonlarından birinin adminstrsiyasındakı problemlər haqda məqalələrdən sonra jurnalist açıq telefon nömrələrindən ölümlə təhdid edilib. Jurnalist qorunması üçün hüquq mühafizə orqanlrına müraciət edib.

“Xəzər TV”-nin əməkdaşları Bakı Bulvarı ərazisində çəkiliş aparmaq istəyərkən Bulvar İdarəsinin mühafizə xidməti əməkdaşlarının basqısına məruz qalıb. Jurnalistlərin çəkiliş aparmasına qadağa qoyulub. Onlardan çəkiliş üçün icazə almaları tələb olunub. Eyni qadağaya başqa medialarda əməkdaşları da məruz qalıblar. Halbuki, qanunvericilik ictimai yerlərdə çəkiliş aparmağa, xəbər toplama, hazırlamağa hər hansı məhdudiyyət nəzərdə tutmur.

“Time TV” onlayn media resursunun əməkdaşı Nurlan Cəfəri Bakıda keçirilən etiraz aksiyalarından birində çəkiliş aparmasına əngəl yaradılıb. Fiziki təzyiqə də məruz qalan jurnalist daha sonra özünün facebook səhifəsindən Daxili İşlər Nazirliyinin rəhbərliyinə maraciət ünvanlayıb, məruz qaldığı təzyiqlərə görə, hüquqi addımların atılmasını xahiş edib. Bunun ardınca jurnalist polisə aparılıb və inzibati qaydada həbs edilib. “Toplum TV” internet televiziyasının əməkdaşı Fatimə Mövlamlı da etiraz aksiyasından reportaj hazırlamaq istəyərkən təzyiqlə üzləşib. Onun çəkiliş aparmasına əngəllər yaradılıb. Aksiya dağıdılan zaman polis maşını jurnalistin ayağının üzərindən keçməklə ona xəsarət yetirib.

# 4. HÜQUQİ VƏ DİGƏR TƏSİRLƏRDƏN İSTİFADƏ ETMƏKLƏ TƏZYİQLƏR

2023-cü ildə Azərbaycanda media, jurnalistlər əksəriyyəti rəsmilər tərəfindən olmaqla, azı 110 dəfə hüquqi, iqtisadi mexanizmlərdən istifadə olunmaqla basqıya məruz qalıblar. Peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin sorğu-sual edilmələri, böhtan və təhqirə görə, eləcə də şübhəli görünən digər ittihamlarla məhkəmələrə çəkilməsi, cinayət və inzibati məsuliyyətə cəlb edilmələri əsas nəzərəçarpan insidentlər sırasında gəlir.

Azərbaycanda 2023-cü ildə əvvəlki illərdən fərqlənən yeni trend müşahidə olunub. İlin sonunda jurnalistlərin kütləvi həbsləri həyata keçirilib. 45 gün ərzində 10-dan artıq jurnalistə müxtəlif ittihamlar irəli sürülüb, onlar məhkəməyə qədər həbs ediliblər. Həbs edilən jurnalistlərin əksəriyyəti tənqidi məzmunlu yazıları ilə tanınan jurnalistlərdir.

**Son aylarda korrupsiya ilə bağlı araşdırmaları ilə məşhurlaşan “Abzas Media” onlayn media resursunun az qala bütün kollektivi “qaçaqmalçılıq”da ittiham olunaraq, həbs ediliblər. “Kana13” internet televiziyasının rəhbəri və əməkdaşlarına da cinayət və inzibati ittihamlar irəli sürülüb.**

“Abzas Media”nın ofisində gözlənilmədən axtarış aparılıb, hüquq mühafizə orqanlarının əməkdaşları ofisdən 40 min avro pul tapıldığını açıqlayıblar. Rəsmi ittihama görə, həmin vəsait müxtəlif donor təşkilatlardan qrant şəklində əldə edilib və ölkəyə qeyri-müəyyən zamanda qaçaqmalçılıq yolu ilə gətirilib. Halbuki, Azərbaycanın milli qanunvericiliyi qrant vəsaitlərinin əldə edilməsi qaydalarının pozulmasına görə, inzibati məsuliyyət müəyyən edib.

**“Qaçaqmalçılıq” ittihamı ilə “Abzas Media”nın 6 əməkdaşı ittiham olunub, onlar məhkəməyə qədər həbs ediliblər. “Abzas Media”nın direktoru Ülvi Həsənli, onun müavini Məhəmməd Kekalov, baş redaktor Sevinc Vaqifqızı, əməkdaşlar Elnarə Qasımova və Nərgiz Absalamova, “Abzas Media”nın və həm də Turan İnformasiya Agentliyinin əməkdaşı Hafiz Babalı hazırda təcridxanada saxlanılırlar.**

“Abzas Media”nın kollektivinin əksər üzvlərinin həbs olunması, onların təqsirsizlik prezumpsiyası hüququna təhlükələrlə müşayət olunub. Hökumətin kontrolunda olan medialar həmin jurnalistləri cinayətkar kimi təsvir edən materiallar yayımlayıblar.

Bununla yanaşı, “Abzas Media” ilə əmkdaşlıq edən bütün jurnalistlər istintaqa cəlb ediliblər. Jurnalistlər Şəmistan Həziyev, Mina Əliyarlı, Sahilə Aslanlı, Leyla Ağayeva və habelə, həbsdəki jurnalsitlərin bəzilərinin ailə üzvləri bir neçə dəfə hüquq mühafizə orqanlarına çağırılaraq, sorğu-sual ediliblər.

“Kana13” internet televiziyasının kollektivi də ciddi təzyiqlərə məruz qalıb. Kanalın rəhbəri Əziz Orucova əvvəlcə “qanunsuz tikinti” ittihamı irəli sürülüb, jurnalist məhkəməyə qədər həbs edilib. Daha sonra ona qarşı da “qaçaqmalçılıq” ittihamı irəli sürülüb.

“Kana13”ün rəhbərinin həbs edilməsi Ə.Orucovun mənzilində və kanalın ofisində bir neçə dəfə axtarış aparılması, əşyaların götürülməsi, eləcə də kollektivin digər əməkdaşlarının cəzalandırlması ilə müşayət olunub.

“Kana13”ün tanınmış aparıcılarından Rüfət Muradlı “xırda xuliqanlıq” və “polisin tələbinə tabe olmama”da ittiham olunub. Jurnalist inzibati qaydada 30 günlük həbs edilib. “Kana13”lə əməkdaşlıq etmiş jurnalist Şamo Eminov da “qaçaqmalçılıq”da ittiham olunaraq həbs edilib. Evdə heç kim olmadığı halda jurnalistin mənzilində axtarış aparılıb.

“Qaçaqmalçılıq” ittihamı ilə həbs edilən, müvafiq cinayət işinə şahid qismində cəlb edilmiş jurnalistlərin bank hesablarına həbs, ölkədən çıxışlarına qadağa qoyulub. “Abzas Media”nın redaktoru S.Vaqifqızının, “Kanal13”-ün rəhbəri Ə.Orucovun anasının pensiya kartları da rəsmi qurumlar tərəfindən bloklanıb.

**2023-cü ilin noyabr-dekabr aylarında “qaçaqmalçılıq” ittihamı ilə cinayət işi açılan, həbs edilən 8 jurnalistdən - S.Vaqifqızı, Ə.Orucov, Ü.Həsənli, M.Kekalov, E.Qasımova, N.Absalamova, H.Babalı, Ş.Eminovdan başqa daha 12 jurnalist və ya mediada çalışan müxtəlif ittihamlarla həbs və ya azadlıqdan məhrum ediliblər.**

Regionlarda çalışan azsaylı müstəqil jurnalistlərdən olan Cəmil Məmmədli uydurma xuliqanlıq, tələb etmə, dələduzluq cinayətlərində ittiham olunaraq, məhkəməyə qədər həbs edilib. Hazırda onun məhkəmə prosesi davam edir.

“Kanal-11” YouTube kanalının rəhbəri Teymur Kərimov “hədə-qorxu ilə tələb etmə” cinayətində ittiham olunaraq, məhkəməyə qədər həbs olunub. Onun vəkilləri ittihamların uydurma olduğunu bəyan ediblər.

Məhkəməyə qədər həbs edilmiş “Xural Media”nın rəhbəri Əvəz Zeynallı və “Səda TV” Youtube kanalının rəhbəri Elnur Şükürov “rüşvət almaq” və “vəzifəli şəxsin qərarına qanunsuz təsir”, sarkazm.az portalının rəhbəri Zaur Qəmbərov “xuliqanlıq”, bloqer Rəşad Ramazanov “narkotikanın dövriyyəsi”, dunyaninsesi.az saytının rəhbəri Ərşad İbrahimov, demokrat.az saytının redaktoru Osman Nərimanoğlu və azerinfo.az saytının rəhbəri İbrahim Hümbətov (Qubadoğlu) isə “hədə qorxu ilə tələb etmə”, “SalamNews” informasiya agentliyi və “İnterAz”ın rəhbəri Mətləb Bağırov “cinayət yolu ilə əldə olunmuş vəsaitləri leqallaşdırma”, “qaçaqmalçılıq” və “vergidən yayınma” cinayətlərində ittiham olunurlar. Jurnalistlərin yaxınları və vəkilləri onların yazılarına görə, şərləndiyini açıqlayıblar.

Bundan əvvəl xeberman.com saytının rəhbəri Polad Aslanov və bloqer Aslan Qurbanov uzun müddətə azadlıqdan məhrum ediliblər. P.Aslanov 2019-cu ildə saxlanılmış, “dövlətə xəyanət” cinayətində ittiham edilmişdi. Yuxarı məhkəmələr 16 il müddətinə azadlqıdan məhrum edilən jurnalistin cəzasını 3 il azaldıblar. A.Qurbanov isə 2020-ci ildə saxlanılıb. “Dövlət əleyhinə açıq çağırışlar” və “milli, dini, sosial ayrı-seçkilik salma” cinayətlərində ittiham olunan jurnalist 7 il müddətinə azadlıqdan məhrum edilib.

Peşə fəaliyyətlərini yerinə yetirərkən jurnalistlərin saxlanılması, peşə avadanlıqlarına müdaxilə edilməsi, görüntülərin məcburi silinməsi 2023-cü ildə də jurnalistlərin üzləşdikləri əsas təzyiq formalarından olub. Bir qrup jurnalist Azərbaycanın Gədəbəy rayonunda ekoloji tələblərlə keçirilən etiraz aksiyasından reportaj hazırlamaq istəyərkən təzyiqlərə məruz qalıblar.

Müstəqil jurnalist Elməddin Şamilzadə polis zorakılığı ilə üzləşib. Jurnalist facebook səhifəsində yaydığı video görüntüləri silməyə məcbur ediləndən sonra sərbəst buraxılıb.

Abzas Media-nın əməkdaşı Nərgiz Absalamova, “Amerikanın Səsi” radiosunun əməkdaşı Nigar Mübariz, müstəqil jurnalist Elsevər Muradzadə də Gədəbəy rayonundakı aksiyadan informasiya toplayarkən maneçiliklə üzləşiblər, onların hadisə yerindən çəkiliş aparmasına imkan verilməyib.

Bakıda keçirilən aksiyadan reportaj hazırlayan “Toplum TV”-nin əməkdaşı Fatimə Mövlamlı da tzyiqə məruz qalıb. Polislər onun çəkiliş aparmasına imkan verməyiblər.

“Kanal11” internet televiziyasının əməkdaşı Cəmilə Əzimova, “Time TV” internet televiziyasının əməkdaşı Nurlan Cəfəri da kütləvi aksiyadan reportaj hazırlayarkən zorakılıqla üzləşib, onların informasiya toplamasına imkan verilməyib.

Gəncə şəhərində keçirilən məhkəmə proseslərindən birindən reportaj hazırlamaq istəyən “Azel TV”-nin əməkdaşı Sevinc Sadıqova da mühafizəçilərin və polislərin maneçiliyinə məruz qalıb. Amerika səfirliyinin ərazisində təşkil olunan aksiyada çəkiliş aparmaq istəyən Abzas Media-nın nümayəndəsi əvvəl mühafizəçilərin, ardınca, əraziyə çağırılan polis əməkdaşlarının təzyiqinə məruz qalıb.

Məhkəmə binasının qarşısında reportaj hazırlayan jurnalistlər - müstəqil jurnalist İslam Şıxəli, Meydan TV-nin əməkdaşları Aysel Umudova və Xəyalə Ağayeva, Toplum TV-nin əməkdaşı

Fatimə Mövlamlı, "Ameriaknın Səsi" radiosunun əməkdaşları Ülviyyə Əli və Nigar Mübariz də təzyiqə məruz qalıb.

Reportyor Nurlan Qəhrəmanlı (Libre) "siyasi məhbus" Mahir Əzimovun oğlunun dəfn mərasimindən, habelə, Baş Prokurorluğun qarşısında keçirilən aksiyadan reportaj hazırlayarkən polislər onu zorakılıqla saxlayıb, polis ofisinə aparıblar.

Müstəqil jurnalistlər Aytac Məmmədli və Şəhla Kərim də reportaj hazırlayarkən icra hakimiyyəti və polis orqanlarının əməkdaşlarının müdaxiləsinə məruz qalıblar. Lənkəran şəhərində çəkiliş aparan jurnalsitlər bir neçə saat təzyiq altında saxlanılıblar, peşə alətləri əllərindən alınıb, lentə aldıqları görüntülər silinib.

"Azərtac" dövlət informasiya agentliyinin jurnalisti Aygün Həsənova isə Fransada - Yeni Kaledoniyada təzyiqlə üzləşib. Vizasının olmasına baxmayaraq, jurnalist polisə aparılıb, ardınca, "arzuolunmaz şəxs" kimi ölkədən çıxarılıb.

**2023-cü ildə jurnalistlərə müxtəlif şübhəli əsaslarla inzibati həbs cəzası verilməsi tendensiyası davam edib.**

Yuxarıda qeyd edilənlərdən ("Kanal13"ün və "Time TV"-nin əməkdaşları Rüfət Muradlı və Nurlan Cəfəri) başqa azı 4 jurnalist inzibati qaydada həbs edilib. Reportyor Nurlan Qəhrəmanlı internet üzərindən "qadağan olunmuş məlumatlar yaymaq" əsası ilə inzibati qaydada həbs edilib. Reportyor həmin ərəfədən müharibə əleyhinə statuslar paylaşmışdı.

Tanınmış jurnalist Aydın Caniyev təhqir məzmunlu paylaşımlarına görə inzibati məsuliyyətə cəlb edilib. Jurnalist həmkarlarından birinin şikayətindən sonra A.Caniyev 1 aylığa həbs olunub.

"Hurriyət" qəzetinin, eyni adlı Youtube kanalının və xəbər portalının baş redaktoru Vüqar Məmmədov isə "məxfi məlumatların internetdə yerləşdirilməyə və belə məlumatların yayılmasının qarşısının alınmaması"na görə, 1 aylıq inzibati həbsə məhkum edilib.

Fotobloqer Vəli Şükürov da eyni müddətə inzibati həbs edilib. "Xırda xuliqanlıq" və "polisə tabe olmama"da günahlandırlan bloqerin vəkilləri ittihamın qurama olduğunu açıqlayıblar.

**Azərbaycan Cinayət Məcəlləsinin 147 (böhtan) və 148-ci (təhqir) maddələri üzrə azı 9 dəfə jurnalistlər, medialar məhkəməyə veriliblər, onlara cinayət cəzası və ağır cərimə cəzalarının verilməsi tələb olunub.**

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova ovqat.com saytının baş redaktoru Heydər Oğuzu məqalələrinə görə xüsusi ittiham qaydasında məhkəməyə verib, unun azadlıqdan məhrum edilməsini tələb edib. Suraxanı Rayon Məhkəməsi jurnalisti böhtanda günahkar bilib, onun 6 ay müddətinə islah işləri cəzasına məhkum edilməsi haqda hökm çıxarıb.

Sabunçu Rayon Məhkəməsi vəkil Aslan İsmayılovun jurnalist Aygün Muradxanlıya qarşı iddiasını qismən təmin edərək, onun üzərinə şikayətçiyə 800 AZN təminat ödəmək vəzifəsi qoyan qərar qəbul edib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay Rayon Şöbəsinin rəisi Səbuhi Sədiyev «Dəryaz» qəzetini məhkəməyə verib. Həmin qəzet adı çəkilən idarənin rüşvətdə ittiham olunduğu məqalə yaymışdı. İddia qismən təmin edilib, qəzet 1138 manat cərimə edilib.

Milyarder Fərhad Əhmədov minval.az saytını böhtan və təhqir yaymaqdə ittiham edərək məhkəməyə müraciət edib. Məhkəmənin gedişində şikayət geri götürülüb.

Keçmiş deputat və iş adamı Hacı Salayev "Yeni Müsavat" qəzetini, onun baş redaktorunu, minval.az saytını və onun baş redaktorunu məhkəməyə verib. Şikayətçi adı çəkilən mediaların rəhbərlərinin böhtan və təhqirə görə, azadlıqdan məhrum edilməsini, mediaların isə 1 milyon manat təzminat ödəməsini tələb edib.

Hərbi ekspert Ədalət Verdiyevin müstəqil jurnalist Rahib Qərib-i məhkəməyə verib. Binəqədi Məhkəməsi jurnalistin yaydığı məlumatları təzib etməsinə və şikayətçidən üzr istəməsinə qərar verib.

Müğənni Könül Xasıyeva müstəqil jurnalist Pərviz Hüseyni mülki qaydada məhkəməyə verib. Jurnalsitdən 100 min manat mənəvi zərər əvəzi təzminat tələb edilib.

<u>2022-ci ilin əvvəlində qüvvəyə minən "Media haqqında" yeni qanunun bütün müddəaları 2023-cü ildən işə düşüb.</u>

Yeni qanun bütün media və jurnalistlərin dövlətin nəzarətində olan reyestrinin yaradılmasını nəzərdə tutur. Qanunun icrasına nəzarət edən Medianın İnkişafı Agentliyi (dövlət tənzimlənməsini həyata keçirən orqan) dia.az (Dünya İnformasiya Agentliyini) xəbər portalını məhkəməyə verib, reyestrdə olmadıqları üçün onların fəaliyyətinə xitam verilməsini tələb edib. Məhkəmə dia.az-ın fəaliyyətinə xitam verilməsi haqqında qərar qəbul edib, portalın saytı bloklanıb. Amia.az, siam.az xəbər portalları da ən ağır sanksiyalara məruz qalıb, onların fəaliyyətinə məhkəmə qaydasında xitam verilib.

Medianın İnkişafı Agentliyi azı 10 medianın media reyestrinə daxil edilməsindən imtina edib. "Gündəm xəbər", "Dəryaz", "Mingəçevir işıqları", "Yeni xəbər", "Real və Aşkar" qəzetlərinin, mi-news.az, az24saat.org, son-xeberler.az, gundemxeber.az, dogruxeber.az, yenixeber.az xəbər portallarının, eləcə də fərdi jurnalist Vüqar Ələkbərovun media reyestrinə daxil edilməsindən imtina olunub. Reyestrə daxil edilməkdən imtina olunması həmin mediaların jurnalist hüquqlarından istifadə etməsini məhdudlaşdırır. Reyestrə daxil edilməsinən imtina olunan media və jurnalistlər məhkəməyə müraciət ediblər.

Qeyd edilənlərdən başqa, Nərimanov Məhkəməsi Baş Prokurorluğun tələbi ilə "Hürriyyət TV"-nin YouTube kanalının bloklanması haqda qərar qəbul edib. Qərar, adı çəkilən medianın yayılması qadağan edilmiş məlumatları yaymaqla əsaslandırılıb.

Səbael Məhkəməsi isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tələbi ilə "Kanal13" internet televiziyasına girişin blok edilməsi haqda qərar qəbul edib. Məhkəmə öz qərarını TV-nin dövlət orqanlarının vəzifəli şəxsləri haqda yanlış məlumatlar yayması ilə əsaslandırıb.

Media Hüququ Qrupu

# AZƏRBAYCAN:

# Medianın hüquqi durumu

*2023, İLLİK ANALİZ*